İki sahil.- 2019.- 10 iyul.- S.7

# O, ürəklərdə yaşayır



Köksündə əsl qəhrəman ürəyi döyünən lerikli balası Etiqad Balaxan oğlu Hacıyev üçün Vətən eşqi hər şeydən əziz idi. Qurub-yaratmaq həvəsi ilə boy atırdı ki, ona əsl övlad olsun.

O, ömrünün 19-cu ilində arzusuna çatır. Qarabağın erməni quldurlarından azad edilməsi uğrunda gedən ölüm-dirim savaşında qəhrəmanlıqla vuruşaraq şirin canından keçir. Duyğulu ürəyinin odu-alovu insanlara saf məhəbbət olan Etiqad indi cismən dünyada olmasa da, ən uca zirvədə dolaşan ruhu bizi həyatın gözəlliyini görüb haqqa, ədalətə tapınmaqla yaxşılarını yaşatmağa səsləyir.

Etiqad Hacıyev 1974-cü ildə Lerik rayonunun, Rvarud kəndində anadan olmuşdu. 1993-cü ildə həqiqi hərbi xidmətə çağırılanda o, ilk gündən səngərə, döyüşə can atırdı. Yaxşı başa düşürdü ki, Vətənin ağır günündə cəbhə xəttində yağı düşmənlə qarşı-qarşı dayanmaq cəsur oğulların işidir.

Xidmətə Ağdam şəhərində yerləşən artilleriya batalyonunda başlayan Etiqadın birinci döyüş yeri Quzanlı olur. Bu ağır savaşdan qalib çıxır. İdarə etdiyi tankla düşmənə sarsıdıcı zərbələr vurur. Ağdamın Mərizli kəndində də erməni işğalçılarına qarşı şəxsi igidlik, şücaət göstərir. Düşmənin əsas mövqelərini dağıtmaqla çoxlu sayda erməni dığasını o dünyalıq edir.

Etimad bir qayda olaraq düşdüyü mübarizə meydanında qalib gəlmək istəyi ilə vuruşurdu. Hər dəfə namərd düşmənlə üz-üzə gələndə yalnız sevdalandığı Vətəninin azadlığını düşünürdü. Bununla da işğalçılara nifrəti birə-beş artır, mərdlər diyarının qəhrəman oğlu kimi hərəkət edirdi. Ağdamda gedən döyüşlərin birində müqəddəs əsgəri borcunu şərəflə yerinə yetirdiyi yerdə tank əleyhinə minaya düşüb ağır yaralandı və 5 iyul 1993-cü ildə hərbi hospitalda gözlərini əbədi yumdu. Şərəfli ölümü ona Vətənin qəhrəmanlıq salnaməsində əbədiyyət çələngi hördü. Ömür yolu qısa olsa da, onun ürəyində Vətənin şərəfini həmişə uca tutmaq arzusu alovlandı.

**Zəfər Orucoğlu,**
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*